**Əsrin Şahidliyi**
**Baş Məqalə - Betti Bleyer**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 7.3 (Payız 1999)
© 2003. Azerbaijan İnternational

Azərbaycanlıların Bakının ən məşhur mərz nişanı olan Qız Qalası haqda çox az məlumata malik olmaları məni həmişə təəccübləndirərdi. Hətta tarixçilər belə tam əminliklə onun tikilmə tarixini və bunun böyük müdafiə sisteminin bir hissəsi olduğunu və ya hər hansı bir dini inamla bağlı və ya kosmoloji bir sistem olub-olmadığını dəqiq söyləyə bilmirlər.

Bir çox əfsanələr onun adında olan "Qız" sözünün məsum qız mənasını daşıdığını izah etməyə cəhd edir, baxmayaraq ki, həmin termin çox güman ki, qalanın heç zaman düşmən tərəfindən işğal edilmədiyi mənasını verir.

Bir rəvayətdə deyilir ki, bir qız atasının pis niyyətindən qaçmaq üçün heç bir çarəsi qalmadıqda özünü həmin qaladan dənizə atmışdır. Lakin Azərbaycanın folklorçuları isə inadla bildirir ki, bu mifologiya Sovet dövründə, xanlara, mülkədarlara və digər "istismarçı"lara—sosializmin ideologiya düşmənlərinə qarşı mübarizə məqsədilə uydurulmuşdur.

Lakin bu əsrdə nə qədər itkinin olduğu və hətta ötən bu onillik ərzində baş verən hadisələr haqda heç bir informasiya olmadığını fikirləşsək, belə tarixi abidələr haqda ümumiyyətlə hər hansı bir məlumatın olduğu çox təəccüblüdür.

Bu əsrdə baş verən bir çox tarixi hadisələr haqda çoxlu lazımi detallar itirilmişdir. Bir çox dəyərli faktlar naməlum qalmışdır. Çox sirlər hələ də Moskvada, Dövlət Təhlükəsizlik Komitəsinin (KQB) arxivlərində bağlı saxlanılır. Və nə qədər həqiqətlər, xüsusilə də Sovet kəşfiyyat xidmətinin Stepanakert (1988), Sumqayıt (1989), Bakının Qara Yanvar (1990) faciələri və Şuşanın asanlıqla işğalı kimi hadisələrdə nə kimi rol oynadığı barədə materiallar heç vaxt sənədləşdirilməmişdir. Azərbaycanda millətin tarixi yaddaşını silmə hadisələri o qədər çox olmuşdur ki, hətta 20-ci əsri "Amneziya Əsri" adlandırmaq olar.

Bu ildə yazdığımız "Əsr Silsiləsi" mövzusunda üçüncü olan bu nömrədə bu əsrdə baş verən bəzi hadisələri təsvir etmək üçün həmin hadisələrin şahidi olmuş müəyyən şəxslərin mövqelərini dərc etmişik. Tarixi hadisələrin mahiyyətini və ardıcıllığını izləmək baxımından şifahi tarixin əhəmiyyətli rolu olduğundan ona çox ciddi yanaşılır. Axı tarixə rəhbərlər tərəfindən yazılanlardan başqa çox şeylər daxildir.

Əlbəttə ki, müəyyən vaxt keçdikdən sonra hər bir millətdə tarixi formalaşdıran hadisələr haqda olan yaddaşın ölüm və ya amneziya nəticəsində itirilməsi çox təbiidir. Lakin müəyyən özünəməxsus amillər vardır ki, Azərbaycanda və Sovet İttifaqında yaddaşın itməsinə təkan vermişdir.

### Əlifba Dəyişiklikləri

Misal üçün, bütün dünyada bu əsrdə Azərbaycan qədər əlifba dəyişikliyi etmiş bir ölkə olduğunu təsəvvür etmək çox çətindir. Əslində, 65 ildən də qısa bir müddət ərzində (1926-1991) 4 dəfə əlifba dəyişikliyi olmuşdur. 1300 il ərzində işlənən ərəb əlifbası latınla əvəz olunmuş (1926), sonra kirilə (1939), daha sonra isə yenidən latın əlifbasına keçilmişdir (1991).

Hər əlifba dəyişikliyində, hətta dəyişiklik siyasi cəhətdən izah edildikdə belə (bu dəyişikliklərin hər birində olduğu kimi) həddindən çox bilik və informasiya itkisi baş verirdi ki, bu da nəsillər arasında uçurum əmələ gətirirdi. Əlifba dəyişiklikləri əsasən ictimai və mədəni yaddaşın itməsi ilə nəticələnir. Cəmiyyətin periferiyası sayılan qruplar—yaşlılar və gənclər, baba, nənə və nəvələr hamıdan çox əziyyət çəkir. Yaşlı nəsil yeni ideya və informasiya əldə edə bilmir, gənc nəsil isə sələfləri tərəfindən yığılmış böyük həcmdə bilikdən məhrum olur. Belə yaddaşın itirilməsi faciəvidir, çox vaxt isə bərpası heç vaxt mümkün olmur.

### Siyasi Sistemlər

Bu əsrdə baş verən amneziyanın digər səbəbi hökumətin ziddiyyətli siyasi sistemlərlə əvəz olunmasıdır. Neft Partlayışı dövründəki (1885-1920) kapitalist sistemi ölkənin mütərəqqi liderlərinin sistemi demokratikləşdirməyə çalışaraq qurduqları Azərbaycan Demokratik Respublikası (1918-1920) ilə əvəz olundu.

Sonra Bolşeviklər məcburi olaraq sosialist rejmini qurdular (1920-1991). Sonda Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan bazar iqtisadiyyatı prinsipinə əsaslanan bir hökumət qurmağa cəhd etdi.

Bir-birini əvəz edən bu siyasi sistemlərin hər biri özündən əvvəlkinin tam əksi olduğundan azərbaycanlılar "siyasi cəhətdən düzgün" olmaya artıq öyrəşmək məcburiyyətində qalmışlar. Dövrün nəbzini tuta bilmək qabiliyyətinin olmaması çox pis nəticələnirdi.

### Stalinin Represiyaları

1924-cü ildən Stalin 1953-cü ildə vəfat edənə kimi onun həyata keçirdiyi siyasət Azərbaycanın tarixi yaddaşının silinməsinə hədsiz rəvac vermişdir. Bu dövr ərzində Azərbaycanın bir çox qabaqcıl siyasi şəxsiyyətləri və ziyalıları həbs edilmiş və ya sürgün edilmişdir. Təkcə Azərbaycanda minlərlə azərbaycanlı Sibirin və digər Orta Asiya ərazilərinin inkişafı üçün ucuz işçi qüvvəsi kimi həbs edilmiş və həmin yerlərə göndərilmişdir. Bütünlükdə Sovet İttifaqında isə bu rəqəm milyona çatır.

Belə düşünülmüş siyasət nəsillər arası əlaqələrin kəsilməsində və qorxunun təlqin edilməsində həddindən çox effektli təsir göstərirdi. Belə ki, bunun nəticəsində valideynlər hətta uşaqlarına etibar etməkdən ehtiyat edirdilər.

Yazıçı Anar dəhşət hissi doğuran "O gecənin səhəri" əsərində kəskin bir misal gətirir (Bax: Aİ 7.1, Yaz, 1999). Burada bir qızın valideynləri bir neçə həftə əvvəl həbs edilmiş qonşunun bəstələdiyi laylanı gəlinciyinə oxuyan qızlarına görə özlərinin həbs ediləcəklərindən qorxurlar.

Əslində Stalin represiyasının əhəmiyyəti ondadır ki, minlərlə insanları qətlə yetirməklə nəsillər arası mövcud əlaqələr kəsilirdi. Artıq 1950-ci illərdə gənclər bilmirdi ki, öz millətlərinin içindən sosialist sisteminə qarşı çıxdıqlarına görə həyatlarını itirmiş dahilər çıxmışdır. Həqiqətdən xəbərdar olan daha yaşlı nəsil isə bu barədə hətta evlərində, gizlində belə qorxudan danışmırdı.

### Rus Dili

Bu əsrdə böyük həcmdə yaddaşın itməsinə səbəb olan faktorlardan biri də gündəlik nitqdə rus dilinin işlənməsinə keçid olmuşdur. Təbii ki, Sovet dövründə müvəffəqiyyətə yol rus dilindən keçib gedirdi. Məktəblərdə rus bölməsi ən yaxşı təhsil sistemi sayılırdı və bu indi də belə olmaqda davam edir. Belə siyasət Azərbaycanlıları öz yazıçıları və digər böyük mütəfəkkirləri haqda öyrənməkdən məhrum etmişdi. Azərbaycan gəncləri Nizamini, Hajıbəyovu yox, Puşkini, Çaykovskini öyrənirdilər. Belə siyasət nəticəsində millətin mədəni yaddaşı səhv istiqamətə yönəlmiş oldu.

Bu günün Azərbaycanında rus dili hələ də Bakıda üstünlük təşkil etməkdədir. Burada yaşayan ruslar ölkənin rəsmi dövlət dili olan Azərbaycan dilini bilmir. Bir çox azərbaycanlılar rus dilində öz ana dillərindən daha sərbəst danışır.

### Sürgün

Milyonlarla azərbaycanlının məcburi surətdə miqrasiya edilməsi də yaddaşın itməsinə səbəb oldu. İlk axın Bolşeviklər hakimiyyəti ələ keçirdikləri vaxt oldu (1920). Azərbaycanın ən qabaqcıl sahibkarları ölkəni kütləvi surətdə tərk etdi. Burada qalanlardan isə çox az hissəsi başlarına gələni danışmaq mümkün olan dövrədək yaşadı. Bu gün Bakının mərkəz hissəsində yerləşən ornamentli malikanələr əvvəlki sahiblərinin şahidi olmuşlar, lakin onlardan ancaq monoqramlar qalmışdır. Onların adları çox vaxt tanınmamış qalır.

Az ömürlü Azərbaycan Demokratik Respublikasına (1918-1920) rəhbərlik edənlər də eyni tale ilə üzləşdilər. Bir çoxları ölkəni tərk etdi, əksər hissəsi isə qətlə yetirildi.

Yüz minlərlə azərbaycanlının digər bir məcburi miqrasiyası 1920-ci illərin ortalarında, Stalin Azərbaycanın Zəngəzur regionunu Ermənistana verən dövrdə baş verdi. 46

kilometr uzunluğu olan bu dar torpaq sahəsi indi Azərbaycanı Naxçıvan vilayətindən ayıraraq türk dilli Bakı ilə Türkiyə arasında hər hansı bir mümkün əlaqəni kəsir. Sonra 1930-cu illərdə digər bir kütləvi köçürülmə həyata keçirildi. Belə ki, bu zaman İrandan gəlmiş yüzlərlə azərbaycanlılar məcburi surətdə geriyə qaytarıldı. Onlar Neft Partlayışı dövründə iqtisadi imkanlar axtarışı ümidi ilə Bakıya gəlmişdilər.

Sonra 1937-ci il, Sovet tarixində ən dəhşətli ad qazanmış illər sayılan dövrdə Stalin yüzlərlə azərbaycanlını həbs etdi. Onlardan bəziləri qətlə yetirildi, çoxları isə sürgün edildi. Bəziləri isə 1953-cü ildə Stalinin ölümünə kimi sağ qala bildi və geriyə, evlərinə qayıtmağa yol tapmağı bacardı.

Sovet hökuməti tərəfindən təşkil edilmiş digər bir kütləvi köçürülmə 1948-1950-ci illər arası, min illərlə orada yaşamalarına baxmayaraq, bir neçə yüz minlərlə azərbaycanlı kütləvi surətdə Ermənistandan qovulduqda baş verdi. Stalin dövründə ən kütləvi köçürülmələrin 2-ci Dünya Müharibəsi ərəfəsində baş verdiyinə baxmayaraq, maraqlı burasıdır ki, bu sürgün sülh zamanı, müharibə qələbəsi qeyd edilən dövrdə baş vermişdi.

Əlbəttə ki, Azərbaycan-Ermənistan münaqişəsi bu əsrdə ən böyük köçkünlükdən birinə səbəb oldu. 1988-ci ildən 1 milyona yaxın azərbaycanlı həm Emənistandan, həm də Azərbaycan ərazisi olan Dağlıq Qarabağdan və 1992-ci ildən başlayaraq ermənilərin hərbi qüvvələrlə ələ keçirdikləri 7 ətraf rayonlardan evlərini tərk edib qaçmağa məcbur olmuşlar.

Bu etnik xarakterli sürgünlərə əlavə olaraq Sovet İttifaqı dağıldıqdan sonra yaranan sərt iqtisadi şərait bir çoxlarını Rusiyada, İsraildə, Türkiyədə, Avropada və Amerika Birləşmiş Ştatlarında iş axtarmağa məcbur etdi.

Bütün bu sürgünlərin hamısı mədəniyyət, dil, təsir dairəsi və dünyagörüşü baxımından nəsillər arası əlaqəni kəsməklə geniş həcmdə yaddaşın itməsi ilə nəticələndi.

Bu nömrədə biz, bu əsri formalaşdıran bir çox hadisələr haqda ümumi bir mənzərə verməyə çalışmışıq. Əlbəttə ki, belə material barədə bir ensklopediya hazırlamaq olardı. Ümid edirik ki, gələcək nömrələrimizdə bu dəfə verə bilmədiyimiz boşluqları doldura biləcəyik.

Arzu edirik ki, növbəti əsr və minillikdə, Azərbaycan bir daha belə yaddaş itkisi ilə üzləşməsin. Ümid edirik ki, sistemlərin heç bir sahədə, istər siyasi, iqtisadi, təhsil və ya mədəni sahədə dəyişilməsinə ehtiyac olmayacaqdır. Qoy bir də heç vaxt bu millətin tarixində milli yaddaş itkisinə səbəb olan bu qədər çox amil olmasın.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova